Azadə NOVRUZOVA

## DİLƏDİM

Bir bülbülsüz gülşən gördüm
yas içində,
Bir çeşməsiz çəmən gördüm
toz içində,
Bənövşəni ağlar gördüm
qar içində,
Qəlbimi çırpınan gördüm
qan içində.
Nalə çəkdim, ah elədim,
Tanrıdan dilək dilədim,
Gülşənə bülbül istədim,
Çəmənə çeşmə dilədim,
Bir günəşli yaz istədim.
İstəklərim sıralandı,
Növbə yetdi öz könlümə-
Gülüm, səni bu könlümə
yar dilədim.

## DƏRDİM

*Sən mənim dərdimsən,*
*Qəlbimin külü qədər.*
*Demirəm dağ boydasan,*
*De, nə qədər kiçiksən?*
*Gözümə üfürülən*
*Ay mənim lal-kar dərdim.*
*Bir ovuc torpaq qədər.*
*Ay mənim kar-kor dərdim.*
*Səni deyib udduğum*
*Ay mənim yetim dərdim.*
*Bir udum nəfəs qədər.*
*Mən səni hardan dərdim?*
*Od vurub yandırdığın*



## GÖZLƏYİRƏM

*Sən sükutda mürgüləyən*
*bir dənizsən-*
*Ləpələrin qırçın-qırçın,*
*Dalğaların pərən-pərən*
*Sahilindən incik düşüb.*
*Sükutunu seyr edirəm sakit-sakit*
*Həmdəm olub səssizliyə.*
*Ortaq edib dərdlərimə*
*Əlvidasız ayrılıqdan gileylənib*
*Ümid ilə, sevgi ilə*
*Dalğaların sahilinə dönüşünü*
*gözləyirəm.*
*Sən üfüqdə par-par yanan*
*bir günəşsən-*
*Şəfəqlərin al qırmızı.*
*Qürubunu seyr edirəm incik-incik,*
*Səni mənsiz görüb yenə kövrəlirəm,*
*Ağlayıram için-için,-*
*Sən sabaha üz tutmusan.*
*Məni zülmət gecələrdə sənsizliklə*
*Tənha qoyub, batıb getdin.*
*Doğuşunu anıb, birdən*
*Əlvidasız ayrılığa vida edib*
*Ümid ilə, sevgi ilə*
*Sabahlara doğuşunu gözləyirəm.*
*Sən könlümdə inildəyən*
*bir kamansan-*
*Nəğmələrin həzin-həzin,*
*Dinləyirəm yana-yana.*
*Söyləyirsən gülüstanda gülü solmuş*
*Bir bülbülün hekayəsin,*
*Son baharda yalqız qoyub, sevgilisin*
*İlk bahara könül verən*
*O çiçəyin, yaşıl donda*
*Gəlişini gözləyirəm*
*Ümid ilə, sevgi ilə...*

## ÜZÜR MƏNİ

Sual dolu baxışların üzür məni,
Gözlərinə baxammıram, baxan kimi.
Muncuq-muncuq göz yaşların
Sual olub yanağına düzülür.
Dindirirəm, qəhər boğur, dillənmirsən,
Dünənimdə bir düyünsən,
Neyləsəm də çözəmmirəm.
Eşq odunda yandırırsan düzü məni,
Alovumda alışmırsan.
Kül altında kösöv kimi
Gizli-gizli közərisən.
Baxışımın günahısan
Çalışsam da yuyammıram.
Dünənimdə bir düyünsən
İstəsəm də çözəmmirəm.
Dünənimsən, de neyləyim?
Bu günümdən siləmmirəm...

*Bakı*